# Fərqli düşüncə

Xüsusi daycest buraxılışı

Xəbər və fikir jurnalı • №04 (74) • 30.01.2012


AzadliqRadiosu.az®


**Sanksiyalar İrana qarşıdır, narahat olan Ermənistandır** səh.2

**Azərbaycan Mətbuat Azadlığı indeksində geriləyib** səh.3

**Putin gəlmələrə qarşı yeni qadağalar təklif edib** səh.6

**Что делать Западу с Азербайджаном?** səh.7

**Səməd Seyidov AŞPA-da Azərbaycanla bağlı dinləmələrə etiraz edib** səh.8

Amerika nağılı: **Mənimlə evlənərsənmi?** səh.12


## Maraqlı videolar

- «Cibimdən 10 qəpik tapanda sevinirəm»
- Şəkidə eradan əvvəl II minilliyə aid kurqanlar dağıdılıb

www.AzadliqRadiosu.az

# Rüstəm İbrahimbəyov Fransa ordenindən niyə imtina etdi?



***Ziyalılar Forumu 30-40 minlik mitinq keçirmək istəyir*** səh.4

# Xəzərdə 60 milyard dollarlıq şəhər salınır

Paytaxt Bakıdan 28 kilometr aralı, Qaradağ rayonunun Sahil qəsəbəsində yeni şəhər salınır. Xəzər adaları ("Khazar İslands") adlanan şəhərin əsas hissəsi Xəzər dənizində yaradılan 50-yə yaxın süni adada yerləşəcək. Buradakı binalardan birinin hündürlüyü 1050 metr olacaq. səh.5

Bizim kino. Mübarizə





**"Atamın saqqalını 3 dəfə zorla qırxıblar"** səh.11

**Nazirliyin bir ilə xərclədiyi yarım milyard manatın siyahısı** səh.9

"Eurovision 2012"nin baş prodüseri: **"Bilirik ki, Azərbaycanda müəyyən çətinliklər var"** səh.14

# «Amnesty İnternational»: Fransa Senatının qanunu söz azadlığına təhlükədir


Nicola Duckworth

«Fransa Senatının erməni soyqırımı iddialarını inkar etməyə görə cəzalar nəzərdə tutan qanunu söz azadlığını pozur». Bunu «Amnesty İnternational» hüquq-müdafiə təşkilatı deyir. «Fransada 2001-ci ildə qəbul olunmuş qanuna görə, ermənilərin 1915-ci ildə Osmanlı İmperiyasından qovulması və kütləvi qətli soyqırımıdır. Yeni qanun ictimai müzakirələrə ağır zərbədir və Fransanın söz azadlığına dair beynəlxalq öhdəliklərinə ziddir», - deyə «Amnesty İnternational»ın Avropa və Orta Asiya üzrə direktoru Nicola Duckworth bildirib. O, qeyd edib ki, insanlar Fransada, Türkiyədə və hər yerdə bu məsələ ilə bağlı fikirlərini azad ifadə etməlidirlər: «Avropa İnsan Haqları Məhkəməsi dönə-dönə bildirib ki, söz azadlığı təkcə təhqirdən kənar ideyalara aid deyil. O, dövləti, yaxud əhalinin istənilən təbəqəsini incidən, təhqir və narahat edən məsələlərə də aiddir».

# Sanksiyalar İrana qarşıdır, narahat olan Ermənistandır

*İrana qarşı Qərb sanksiyalarının güclənməsi Ermənistanı odla su arasında qoyub. Bir tərəfdən ABŞ-dan hər il alınan təxminən 40 milyon dollar yardım, o biri tərəfdən Ermənistan üçün həyati əhəmiyyətli İran. "Armenia Today" yazır ki, Ermənistanın keçmiş xarici işlər naziri Aleksandr Arzumanyan optimistdir və düşünür ki, ABŞ-la İran arasında hərbi münaqişə az ehtimallıdır, hərçənd nöqtəvi zərbələri istisna etmir. Ancaq o deyib ki, münaqişə olsa, bunun region, xüsusilə Ermənistan üçün çox pis nəticələri olacaq. Ancaq hərbi münaqişəsiz də İrana qarşı iqtisadi sanksiyaların güclənməyindən Ermənistanda dərin narahatlıq var.*

**TƏBRİZDƏN GƏLMƏLİ NEFT KƏMƏRİ**

Ermənistanın İranla əməkdaşlığında hazırda mərkəzi yeri Təbrizdən çəkilməli neft kəməri tutur.

Bu kəmər Ermənistanın Yerasx şəhərciyinə gündə 1 milyon 500 min litr neft məhsulları gətirməlidir. Əgər tikilsə. Tikintinin başlanması bu ilə planlaşdırılır. Kəmər 160-180 milyon dollara başa gəlməlidir. İran kəmərin öz ərazisindəki hissəsini tikməyə razı olub. Ermənistan isə öz ərazisindəki hissəsini tikəcək.

**İNVESTİSİYA NEFTƏ AİDDİRSƏ, 20 MİLYON DOLLARDAN ARTIQDIRSA...**

Təbriz-Yerasx kəmər layihəsi ABŞ-ın İran sanksiyalarının təsir dairəsinə düşürmü? Düşür. Çünki ABŞ qanununa görə, sanksiyalar "İranın neft resurslarını birbaşa və əhəmiyyətli dərəcədə gücləndirən 20 milyon dollardan artıq investisiyalara" aiddir.

Ancaq kəmər Ermənistan üçün həm enerji, həm maliyyə cəhətdən çox sərfəlidir. Ermənistanın enerji naziri Armen Movsisyan deyir ki, bu kəmər Ermənistanın illik enerji xərclərini 30 faiz azaldacaq. İrana qarşı sanksiyaların güclənməsi, nazirin fikrincə, Ermənistanı bu layihədən çəkindirməyəcək. O deyib ki, İranın həmişə problemləri olub, ancaq Ermənistan həmişə öz işlərini davam etdirib. Nazir EurasiaNet.org-a bildirib ki, Təbriz-Yerasx neft kəməri bu il tikilməyə başlayacaq. Ermənistanın hazırda İranla 140 km-lik qaz kəməri var. Bu kəmər Ermənistana ildə 2 milyard 300 milyon kubmetr qaz gətirir. İranla su-elektrik stansiyası və dəmiryolu layihələri var və bunların hər ikisi İranın maliyyəsindən asılıdır.

***Elxan Nəsibli***



# Vəfa Quluzadə: «Azərbaycan İranla düzgün siyasət aparır»

AzadlıqRadiosunun «İşdən sonra» proqramında İran ətrafındakı gərginliyi şərh edən politoloq Vəfa Quluzadə belə deyib. Politoloqun fikrincə, İranda dəyişikliklər istisna olunmur: *«İran indi çox şiddətli təzyiqlər altındadır. Həm maliyyə embarqosu, həm neft embarqosu İranda daxili vəziyyəti gərginləşdirir. İran valyutası məzənnəsini itirib. Bütün bunların hamısının mənfi təsiri İran cəmiyyətini laxlatmağa aparır».*

Vəfa Quluzadə onu da deyib ki, Amerikada seçkilər bitənə qədər İranda hər hansı hərbi əməliyyatın başlanacağına inanmır. Politoloq deyir ki, Qərbin təzyiqi təklikdə İran hökumətinə ciddi təsir edə bilməz: *«Heç bir embarqo ölkəni tamamilə yıxıb sürüyə bilməz, ölkədə dəyişiklik apara bilməz. Ölkədə dəyişiklik ya daxildən, ya da daxillə xaricin birliyindən əmələ gəlir».*

**«AZƏRBAYCAN HAKİMİYYƏTİ DÜZ EDİR»**

Milli Məclisin üzvü, Ana Vətən partiyasının sədr müavini Zahid Oruc Azərbaycanın İran və dünya ilə bağlı aparacağı siyasətə toxunaraq bildirib ki, fərdi baxışlarına görə Azərbaycanın sanksiyalara qoşulmasının tərəfdarı olmasına baxmayaraq, rəsmi Bakının bu istiqamətdə tutduğu mövqeni dəstəkləyir.

Politoloq Vəfa Quluzadə də hesab edir ki, Azərbaycan İranla düzgün siyasət aparır: *«Azərbaycan İranın heç bir daxili işlərinə qarışmır. Dinc qonşuluq siyasəti həyata keçirir. Əksinə, İran Azərbaycanın daxili işlərinə qarışmağa cəhd göstərir».*

**Verilişi tam olaraq AzadliqRadiosu.az saytından dinləmək olar.**

***Şahnaz Bəylərqızı, Kamran Mahmudov***

# Azərbaycan Mətbuat Azadlığı indeksində geriləyib




**Yanvarın 25-də «Sərhədsiz Reportyorlar» təşkilatı illik Mətbuat Azadlığı indeksini açıqlayıb. Azərbaycan «Sərhədsiz Reportyorlar»ın Mətbuat Azadlığı indeksində 179 ölkə arasında 162-ci yerdə qərar tutub. Ötən illə müqayisədə Azərbaycan 10 pillə aşağı düşüb.**

Qurumun yaydığı məlumatda deyilir ki, 2011-ci ildə dünyada mətbuat azadlığı ilə bağlı bəzi dəyişikliklər olub. Təşkilat bu sırada "Ərəb Baharı"nın rolunu xatırladır: «Ərəb ölkələrində baş verən proseslər avtoritar ölkələrin mətbuatla davranışına təsir edib».

«Sərhədsiz Reportyorlar»ın 10-cu hesabatında deyilir ki, hələ də hökumətlər mətbuat və informasiya üzərində nəzarətə davam edirlər. Ayrı-ayrı ölkələrdə medianın durumunu təhlil edən təşkilat Azərbaycanla bağlı yazır ki, «İlham Əliyevin despotik rejiminin tərəddüd etmədən vətəndaşları həbsə atdığı bir ölkədə həbs olunanların sayında dramatik artım var». Təşkilat yazır ki, bu ölkədə müxalifyönlü jurnalistləri oğurlayırlar.

«Sərhədsiz Reportyorlar» bildirir ki, demokratiya tələbi ilə keçirilən etirazların qarşısı zorakılıqla alınmasından sonra Azərbaycan Mətbuat Azadlığı indeksində geriləyib. Belarusla Azərbaycanı eyni bölümdə təhlil edən təşkilat qeyd edir ki, «Belarus və Azərbaycan prezidentləri Aleksandr Lukaşenko və İlham Əliyev hər ikisi mətbuat azadlığının qənimidir».

Hesabatda yazılır: «Belarusda 100-dən çox jurnalist və bloqçu tutulub, Azərbaycan da eyni üsuldan istifadə edib və sosial şəbəkələrdə söz və ifadə azadlığından istifadə edən bloqçuları həbsxanaya atıb».

Mətbuat Azadlığı cədvəlində Azərbaycanın qonşuları, İran istisna olmaqla, digərləri ondan yuxarı pillədə qərar tutub: Məsələn, Rusiya 142, Ermənistan 77, Gürcüstan 105, Türkiyə 148-ci yerdədir. Ötən ildə Qırğızıstanda mətbuat azadlığında vəziyyət yaxşılaşdığından ölkə təxminən 10 pillə yuxarı qalxıb və 109-cu yerdə qərarlaşıb. Siyahıya Finlandiya rəhbərlik edir, ən sonuncu pilləni isə Eritreya tutur. Keçmiş SSRİ respublikası olan Estoniya isə 3-cü yerdədir.

***Səadət Akifqızı***

# İran Bakıda terror planlaşdırmadığını deyir

**İran bu yaxınlarda Azərbaycanda terror ittihamı ilə həbs edilmiş dəstənin onun xüsusi xidmət orqanları ilə əlaqəsi olması barədə xəbərləri təkzib edir. İranın Azərbaycandakı səfirliyinin bəyanatında deyilir ki, bu cür ssenariləri iki ölkənin yaxınlaşmasını, onların müstəqilliyini istəməyən qüvvələr hazırlayır:**

«Son ssenari İranın nüvə alimlərinin sionist rejiminə bağlı qüvvələr tərəfindən terrorunun ört-basdır edilməsi istiqamətindədir. Belə tədbirləri, heç şübhəsiz, hər iki ölkənin düşmənləri hazırlayıb. Bu, İran İslam Respublikasının beynəlxalq imicinə zərbə vurmağı nəzərdə tutmaqla yanaşı, iki ölkənin əlaqələrini də hədəfə alıb».

Bəyanatın sonunda qeyd edilir ki, belə hərəkətlər Azərbaycanla İranın strateji münasibətlərinə xələl gətirə bilməz. Bununla belə, bu cür açıqlamalar yayımlanarkən iki ölkə rəhbərlərinin iradəsindən kənar hər hansı addım atılmaması üçün sayıqlıq və ciddiyyət qorunmalıdır.

## AzadliqRadiosu.az-da maraqlı videolar

- «Cibimdən 10 qəpik tapanda sevinirəm»
- Gənclər Fransa səfirliyi yaxınlığında göyərçin uçurur
- Xəzər adalarının tikintisi gedir
- Ermənistanda yeni doğulan körpəyə Sarkozi adı qoyublar
- Gənclər "Eurovision" açarını necə görür?
- Şəkidə eradan əvvəl II minilliyə aid kurqanlar dağıdılıb

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun




**Qazaxıstanda etiraz aksiyası keçirilib**



**İcbari sığorta maşının mühərrik həcminə görəmi olmalıdır?**




**Gürcüstanlı sürücünün Bakıda yol polisi ilə macəraları**



**Lalə Şövkət Fransanın «Fəxri legion» ordenlərinin qaytarılmasını istəyir**

# Rüstəm İbrahimbəyov Fransa ordenindən niyə imtina etdi?


Rüstəm İbrahimbəyov

**Yazıçı və ictimai xadim, «Oskar» mükafatı laureatı Rüstəm İbrahimbəyov 2000-ci ildə ona verilən Fransa ordenindən imtina edib. O bu barədə yanvarın 25-də bəyanat yayıb. AzadlıqRadiosuna müsahibəsində Rüstəm İbrahimbəyov deyib ki, o, təkcə ordendən yox, həm də Fransa-Azərbaycan Mədəniyyət Cəmiyyətinin sədrliyindən də imtina edib. Rüstəm İbrahimbəyov Azərbaycan xalq yazıçısıdır, Azərbaycan Kinematoqrafçılar İttifaqının rəhbəridir, onun əsərləri əsasında 40-dan çox bədii film, televiziya filmləri və tamaşaları çəkilib.**

**«ORDENDƏN İMTİNA ETMƏK ÇƏTİN OLDU»**

*- Rüstəm müəllim, Fransanın ordenindən imtina etdiniz. Kim vermişdi ordeni Sizə, harada verilmişdi?*

- Fransanın Mədəniyyət Nazirliyi verib, amma ordeni mənə bu ölkənin Azərbaycandakı səfirliyində təqdim ediblər.

*- Çətin olmadı ki, belə bir ordendən imtina etmək?*

- Əlbəttə, çətindir. Çünki mənim Fransa ilə uzun illərdir mədəni əlaqələrim var. İki film – «Urqa» və «Şərq-Qərb» mənim ssenarim əsasında Fransa ilə birgə çəkilib və «Oskar»a namizəd olub. Bundan başqa 5 ildir ki, hər il Marseldə kino və teatr festivalı keçirirəm. Fransa ilə başqa əlaqələrim də var. Necə deyərlər, bu ordeni mənə zəhmətə görə veriblər. Mənə elə gəlir ki, belə bir addım atmasaydım, özümə hörmət etməmiş olardım. Ona görə mən məcbur idim belə bir addım atım.

**«BU, ŞƏXSİ İŞDİR»**

*- Rüstəm müəllim, Azərbaycanda Fransa ordenlərini alan digər adamlar da var. Onlar da belə addım atmalıdırlarmı?*

- O, hər adamın öz seçimidir. Mən bunu heç kimdən tələb etmirəm. Bu, şəxsi işdir.

*- Liberal Partiyasının sədri Lalə Şövkət bəyanatında deyib ki, prezidentin həyat yoldaşı Mehriban Əliyeva da Fransanın «Şərəf Legionu» ordenindən imtina etsin. Münasibətiniz necədir bu məsələyə?*

- Bilirsiniz, elə bir vəziyyət yaranıb ki, bu addımı sıravi vətəndaş edə bilər. Amma siyasi məsələlər olduğu üçün dövlət başçısı və onun yoldaşının bu addımı atması çətindir. Ona görə də, mənə elə gəlir ki, bu məsələyə hərə özü qərar verməlidir. Türkiyə, bu xalq, bu ölkə tarix boyu həmişə bizə kömək əlini uzadıb. Mən özümə borc saydım ki, bu addımı atım.

**«ORDENİ DƏRHAL GÖNDƏRƏCƏYƏM SƏFİRLİYƏ»**

*- Rüstəm müəllim, imtina etdiyiniz ordeni hara, kimə təhvil verəcəksiniz?*

- Ordeni mən səfirliyə göndərəcəyəm. Amma iş ondadır ki, hələlik bu qərarım qanunun qəbulundan asılıdır. Senatın qərarına prezident Sarkozi imza atmalıdır. Bundan başqa, Senatın 60 deputatı Fransa Konstitusiya Məhkəməsinə müraciət edib ki, qəbul olunan qərarı təsdiqləməsin. Bunu gözləyirəm. Bu, qanun kimi qəbul olunandan sonra ordeni dərhal göndərəcəyəm səfirliyə. Hesab edirəm ki, Senatın bu qərarı Fransanın böyük ənənələrinə, həm də demokratiyaya ziddir.

**BU ORDENDƏN DAHA KİMLƏRDƏ VAR?**

*- Rüstəm müəllim, Sizə verilən ordendən Azərbaycanda daha kimlərdə var?*

- Bu ordenin dərəcələri var. Mən həmin ordenin zabitiyəm. Belə bir orden yalnız məndədir. Amma sıravi, yəni «kavaler» deyilən dərəcəsi Fərhad Bədəlbəyliyə verilib, daha bir neçə adamda var. Yenə də təkrar edirəm, mən heç kimdən tələb etmirəm ki, onlar ordenlərini qaytarsınlar.

# Ziyalılar Forumu 30-40 minlik mitinq keçirmək istəyir

**Ziyalılar Forumu Fransa Senatının qərarının əleyhinə 30-40 minlik etiraz aksiyası keçirməyi planlaşdırır. Bu haqda AzadlıqRadiosunun "İşdən sonra" proqramında Ziyalılar Forumunun rəhbərliyində təmsil olunan, xalq yazıçısı, dramaturq Rüstəm İbrahimbəyov deyib. O bu məqsədlə Bakı Şəhər İcra Hakimiyyətinə müraciət edəcəklərini də bildirib:**

"Azərbaycan da Fransa Senatının qərarına rəsmi münasibət bildirdi. Amma mənə elə gəlir ki, siyasi hakimiyyətin münasibəti daha güclü, daha emosional və daha ardıcıl olmalıdır.

Mitinqlər də keçirilməlidir. Ziyalı Forumu Bakı Şəhər İcra Hakimiyyətinə müraciət edəcək ki, böyük mitinq keçirməyə, əhaliyə etirazını bildirmək üçün şərait yaradılsın. Türkiyədə görəndə ki, minlərlə azərbaycanlılar onlarla bir yerdədir, bu onlara böyük dəstək olacaq. Bu, Fransaya da etirazdır. Belə xalq hərəkatlarına bütün dünya fikir verir".

Rüstəm İbrahimbəyov Azərbaycanda Fransa əleyhinə edilən çağırışlara da münasibət bildirib:

"Türkiyəyə məhəbbətimizi, dostluğumuzu göstərməliyik. Amma bizim hərəkətlərimiz mədəni olmalıdır. Amma isterik bir kampaniya olmamalıdır. Kitab



yandırmaq, musiqini qadağan etmək mədəni xalqa yaraşmaz. Türkiyə üçün əlimizdən nə gəlir etməliyik. Amma bundan əvvəl götür-qoy etməliyik".

***Şahnaz Bəylərqızı, Kamran Mahmudov***

# Xəzərdə 60 milyard dollarlıq şəhər və dünyanın ən hündür binası tikilir



**Paytaxt Bakıdan 28 kilometr aralı, Qaradağ rayonunun Sahil qəsəbəsində yeni şəhər salınır. Xəzər adaları ("Khazar İslands") adlanan şəhərin əsas hissəsi Xəzər dənizində yaradılan 50-yə yaxın süni adada yerləşəcək. Artıq mətbuatda bu şəhərdə ucaldılacaq Azərbaycan qülləsinin 1050 metr hündürlükdə olacağı barədə məlumatlar yayılıb. Yeni şəhərdə artıq iki ildir tikinti gedir. Yaşayış binaları tikilir, yollar çəkilir. Fəhlələrin dediyinə görə, prezidentin gəlişi gözlənildiyindən yolların çəkilişi sürətlənib.**

### DƏNİZİN İÇƏRİLƏRİNƏ DOĞRU DAHA 8 KİLOMETR DOLDURULACAQ

Ərazidəki iş icraçılarının dediyinə görə, tikinti işlərinə 2010-cu ildən başlanıb. Yolun Bakı-Astara magistralına yaxın bir hissəsinə artıq asfalt döşənib. Dəniz həmin ərazidə bir neçə kilometr doldurulub. Şəhər hələ dənizin içərilərinə doğru daha 8 kilometr uzanacaq. Dənizin torpaqla doldurulmuş hissəsində bir-neçə yaşayış binası tikilməkdədir. Şəhərin digər bir hissəsində isə restoranlar, əyləncə mərkəzləri, ictimai-iaşə obyektləri tamamlanmaq üzrədir. Yeni şəhərə gedəcək yolların kənarına isə bir neçə cərgə iri palma ağacları əkilib. Yeni salınan şəhərin ərazisi 2 min hektarı əhatə edir. Şəhərcik "baş" adadan, iki paralel xətlə uzanan tikililərdən, çoxmərtəbəli binalar və villalar üçün ayrıca irili-xırdalı adalardan ibarətdir. Kompleksi 20-yə yaxın körpü birləşdirəcək.

### İLK MƏRHƏLƏSİ 2013-də BİTMƏLİDİR

Tikinti işlərini bir neçə şirkətin birləşdiyi AVESTA konserni həyata keçirir. Konsern rəhbəri İbrahim Nehrəmli AzadlıqRadiosuna deyir ki, bu ideya onun Dubaya səfəri zamanı meydana gəlib. Üç mərhələdə həyata keçiriləcək tikintiyə ümumilikdə 60 milyard dollar xərclənəcəyi gözlənir: "Birinci mərhələ 12 milyard, ikinci mərhələ 18 milyard dollar, 3-cü mərhələyə isə 30 milyard vəsait xərcləməyi nəzərdə tuturuq".

Şirkət rəhbərinin dediyinə görə, bütün işləri 2016-ci ilə yekunlaşdırmağı planlaşdırılar. Bəzi iaşə obyektləri isə daha tez, 2012-ci ilin sonlarına yaxın işə düşməlidir. İbrahim Nehrəmli əraziyə yalnız palma ağaclarının əkilməsinə də aydınlıq gətirdi. Bu ağacları digərlərindən daha çox xoşladığını deyən konsern rəhbərinin bildirməsinə görə, ərəb ölkələrindən gətirdikləri ağacların bəzilərinin 100 ilə yaxın yaşı var: "Palma ağaclarını çox sevirəm. Həm də bu ağaclar bura uyğunlaşandan sonra bir-iki ilə xurma verəcəklər. Biz 100 il yaşı olan heç bir ağacı belə gətirib əkə bilmərik".

İbrahim Nehrəmli deyir ki, indiyə qədər görülən işlərə 1 milyard manatdan artıq pul xərclənib.

### TİKİNTİ MÜTƏXƏSSİSLƏRİ NARAHATDIRLAR

Orada artıq işləri getsə də, bəzi mütəxəssislər həmin ərazinin tikinti üçün düz seçilmədiyi qənaətindədirlər. Artıq bir neçə memar və tikinti mütəxəssisi bu ərazilərin seysmoloji baxımdan tikintiyə yaralı olmaması ilə bağlı fikirlər də səsləndiriblər. Amma İbrahim Nehrəmli deyir ki, onlar tikintiyə başlamazdan əvvəl bu məsələlərlə bağlı dövlət qurumlarına müraciət ediblər. Ərazidə artıq yerin quruluşu ilə bağlı aidiyyəti qurumlar müəyyən işlər görüblər: "Biz seysmoloji institutdan da sənədləri almışıq. Nəticələr çox yaxşı çıxıb".

### ÇİNDƏN, TÜRKİYƏDƏN VƏ ƏRƏB ÖLKƏLƏRİNDƏN İNVESTORLAR DƏVƏT EDİLİB

Şirkət rəhbərinin dediyinə görə, şəhərdəki ilkin mərhələ üçün nəzərdə tutulan 1100 yaşayış mənzilini rəhbəri olduğu Avesta Konserninin vəsaiti hesabına tikəcək. Qalan işlərin aparılması üçün xarici sərmayəçilər cəlb ediləcək: "Bu ilin martından da xarici investorların gəlməsi gözlənilir".

İbrahim Nehrəmli deyir ki, artıq Türkiyə, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri və Çin iş adamlarının gələcəyi gözlənilir. Konsern rəhbərinin sözlərinə görə, həmin ölkələrin iş adamları ilə danışıqlar yekunlaşmaq üzrədir. Yeni şəhərdə mənzillərin qiymətinə gəlincə, bu elə də ucuz olmayacaq. İbrahim Nehrəmlinin dediyinə görə, hazır mənzillərin 1 kvadrat metri 3500 manat olacaq.

*Tikinti gedən ərazidən yeni çəkilmiş fotolara və şəhərin layihəsindən görüntülərə reportajın mətnindən sonra baxa bilərsiniz.*

***Maarif Çingizoğlu***



# Azərbaycan əsgəri əsir düşüb

Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) azərbaycanlı əsgərin Dağlıq Qarabağda əsir düşməsi faktını təsdiqləyib. BQXK-nın Azərbaycan nümayəndəliyinin mətbuat katibi Şəhla Qəhrəmanova imkan olan kimi əsirə baş çəkəcəklərini deyib. Ermənistan mətbuatı Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində, Tərtərin Yuxarı Çaylı kəndi yaxınlığında Azərbaycan əsgərinin əsir götürülməsi haqda məlumat yayıb.

# Gürcüstanda 3 dəqiqəyə, Azərbaycanda 24 saata başa gələn iş...



Yük maşınları

**«Türkiyədən plastik boru gətirmişik, amma Sumqayıt Baş Gömrük İdarəsində yükün sənədləşdirilməsi ilə bağlı problemlə üzləşmişik». Sahibkar Ədalət Abbasovun dediyinə görə, yanvarın 21-də Türkiyədən gətirdikləri 5 maşın yükü heç cür sənədləşdirə bilmirlər. Elə həmin tarixdən də şəriki ilə Sumqayıtla Bakı arasında qalıblar.**

**GÖMRÜYÜN ŞÜBHƏSİ**

Yanvarın 27-də hər iki sahibkar Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyevin qəbuluna yazılsa da, bu görüş baş tutmayıb. Onlara bildirilib ki, komitə sədri Bakı Dövlət Universitetində keçirilən tədbirdədir. Bir qədər sonra onları Komitənin digər səlahiyyətli nümayəndələri qəbul ediblər: *«Bizi Komitə sədrinin katibliyi qəbul etdi. Problemlərimizi dinlədi və söz verdi ki, həll edəcəyik».*

Ədalət Abbasovun dediyinə görə, gömrükdə yaranan problem gətirdiklərin malın qiyməti ilə bağlıdır: *«Deyirlər ki, sizin gətirdiyiniz malın qiyməti çox ucuzdur. Bizdən də ucuz qiymətə rəsmiləşdirən var. Yükün gömrük bəyannaməsini heç cür qeydiyyata sala bilmirik».*

Sahibkar iddia edir ki, gömrükdə həmin malı daha baha qiymətə sənədləşdirmək istəyirlər ki, həmin qiymətə uyğun rüsum alsınlar.

**HEÇ BİR ÖLKƏDƏ BU PROBLEMLƏRLƏ ÜZLƏŞMƏDİK...**

Ədalət Abbasovla şərikinə məxsus yükü Türkiyədən gətirən 5 maşın isə yanvarın 21-dən Qaradağ rayonunun Lökbatan dairəsində dayanmaqdadır. Sürücülərin AzadlıqRadiosuna dediyinə görə, onlar bir günə yükü boşaldıb geri dönməli idilər. Amma 8-ci gündür ki, gözləyirlər. Sürücülərlə yaxınlıqdakı kafelərdən birində görüşdük. Dediklərindən aydın oldu ki, indiyə qədər xeyli ölkələrə yük daşısalar da, heç birində belə problemlə üzləşməyiblər:

**GÜRCÜSTANDA 3 DƏQİQƏYƏ, AZƏRBAYCANDA 24 SAATA**

*«Gürcüstanda 3 dəqiqəyə aparılan yoxlama Azərbaycanda 24 saata aparılır. Heç biz maşınlardan düşmürük. Sənədləri veririk. Qeydlər aparıb verirlər ki, gedin. Sənədləşmə işi çox uzun çəkir. Bir maşın 10-15 adamın əlindən keçir».*

Türkiyəli sürücülər iddia edirlər ki, 400 dollara yaxın rüsum ödəyəndən sonra onlar 50 dollar da sərhəd-keçid məntəqəsində dayanan hərbçilərə verməli olurlar:

- Mən əsgərə 50 dollar verdim.

*- Niyə verdiniz o pulu? Buna görə sizə bir sənəd verildimi?*

- Mən onu rüşvət kimi verdim.

*- Gürcüstanda da belə hallarla üzləşdinizmi?*

- Yox, Gürcüstanda yoxdur, sadəcə, «Qırmızı körpü»də var.

*- Bəs Türkiyədə necə?*



Sürücülər deyir ki, indiyə qədər xeyli ölkəyə yük daşısalar da, heç birində belə problemlə üzləşməyiblər

- Türkiyədə də yoxdur.

«Qırmızı körpü» gömrük keçid məntəqəsindən isə sürücülərin bu dediklərinə hər hansı reaksiya öyrənmək mümkün olmadı. Türk sürücülər isə deyirlər ki, onlar 15 gün ərzində Azərbaycanı tərk etməsələr, cərimə olunacaqlar.

**GÖMRÜK ARAŞDIRIB CAVAB VERİLƏCƏYİNİ DEYİR**

Sumqayıt Baş Gömrük İdarəsindən isə AzadlıqRadiosuna deyiblər ki, onlar məsələ ilə bağlı araşdırma aparandan sonra məlumat verəcəklər. Sahibkarlar dəfələrlə mətbuata bildiriblər ki, rüşvət vermədikləri üçün gömrükdə yükləri buraxılmır, sənədləşdirilmə yubanır. Gömrük rəsmiləri isə bu deyilənləri təkzib edirlər. Deyirlər ki, xaricdən gətirilən yüklə bağlı problemlər sənədlərin çatışmazlığına görədir.

***Maarif Çingizoğlu***

# Putin gəlmələrə qarşı yeni qadağalar təklif edib




Baş nazir Vladimir Putin Federal Miqrasiya Xidmətində çıxış edir. 26 yanvar 2012

**Rusiyanın Əmək və Miqrasiya qanunvericiliyini pozanların 10 il müddətinə ölkəyə girişi qadağan olunmalıdır. Rusiya Baş naziri Vladimir Putin Moskvada Federal Miqrasiya Xidmətində çıxışında belə deyib. Putinin sözlərinə görə, miqrasiya xidməti, Daxili İşlər Nazirliyi, Federal Təhlükəsizlik Xidməti regionlardakı biznes sahibləri ilə birgə çalışmalıdırlar ki, harada, nə qədər, hansı peşələr üzrə işçilərə ehtiyac olduğunu müəyyənləşdirsinlər. Martın 4-də növbəti dəfə prezident seçkilərində iştirak edəcək Putin həmçinin qanunsuz fəaliyyətlə məşğul olan miqrantların və onlara yardım edənlərin cərimə olunmaqdansa cinayət məsuliyyətinə cəlb edilməsini təklif edir.**

Putin deyib ki, miqrantlar Rusiya cəmiyyətinə inteqrasiya olmalıdırlar və qapalı etnik icmaların yaradılmasına yol verilməməlidir. Çünki belədə həm miqrantların özləri, həm də cəmiyyət üçün əlavə risklər ortaya çıxır. Putin çıxışının sonunda bildirib ki, təklif edilən dəyişikliklərə baxmayaraq, MDB ölkələri ilə vizasız gediş-gəliş qaydasının da davam etdirilməsində maraqlıdır.

Putin seçki kampaniyası başlayandan bəri artıq 4-cü dəfədir ki, diqqəti miqrantlar məsələsinə çəkir. Post-sovet ölkələrindən, xüsusən də Orta Asiya və Qafqazlardan olan milyonlarla miqrant Rusiyada rəsmi və qeyri-rəsmi şəkildə çalışırlar.

***İlkin Məmmədov***

# Что делать Западу с Азербайджаном?



Хикмет Гаджизаде

**Участники Вашингтонского Форума « Что делать с лжедемократией: образец Азербайджана» выражая единство во мнении о необходимости реформ в Азербайджане, разошлись во мнении при обсуждении вопроса «изнутри или извне должны быть ускорены демократические преобразования», передает Turan.**

Эксперт из Азербайджана Хикмет Гаджизаде отметил, что «авторитарная власть в Азербайджане жестко подавляет своих политических оппонентов».

«Оппозиция пытается этому противодействовать. В частности, правозащитники и молодые блогеры фактически выполняют роль политпартий, а свободных СМИ меньше, чем пальцев на одной руке.Одна из основных причин подавленности и разочарований оппозиции - политика двойных стандартов Запада, а также политическое и экономическое давление, аресты и жесткое лицо авторитаризма.

Общественные опросы в Азербайджане показали, что лишь 5,4% опрошенных считают США другом. Если Запад хочет изменить эту ситуацию и добиться истинных демократических преобразований, то должен поддержать политическую оппозицию. Вместо того, чтобы организовывать тренинг-семинары для сотрудников полиции, судов, избирательных комиссий и других «неработающих структур», Запад должен инвестировать в политических активистов и помогать реальному развитию».

Гаджизаде призвал представителей демократического мира к «открытому диалогу с диктатором»: «Мнение о том, что санкции не работают, неверно. Не давайте возможности диктаторам создавать в стране и за ее пределами лживый имидж демократии».

В свою очередь, профессор университета Джорджа Вашингтона Шарон Волчик в своем выступлении сказал, что «для получения международной поддержки, оппозиция в Азербайджане должна сплотиться и выработать стратегию»: «Поддержка Запада становится решающей на очередных этапах демократических процессов. К примеру, когда Запад увидел, что авторитарный режим Словакии не отступает перед демократическим движением, то предупредил, что оставит страну за пределами НАТО и ЕС».

# Против Ирана - любые средства

**Президент США Барак Обама, выступая во вторник с ежегодным посланием «О положении страны», заявил, что США готовы любыми средствами предотвратить разработку Ираном ядерного оружия. Он отметил, что решение проблемы ядерной программы Ирана мирным путем возможно, в случае изменения Тегераном позиции в этом вопросе. Обама приветствовал гибель ливийского диктатора Муамара Каддафи и предупредил президента Сирии Башара Асада, что дни его режима сочтены.**

В своей речи Обама предложил повысить налоги для богатых американцев, доходы которых превышают миллион долларов в год. Президент США предложил членам конгресса разработать законопроект, который даст возможность иностранцам, приносящим пользу Соединенным Штатам, «заработать» американское гражданство: "Настало время для всеобъемлющей иммиграционной реформы. Но если год выборов не позволяет конгрессу работать над всеобъемлющим планом, давайте, по крайней мере, договоримся прекратить выдворять ответственных молодых людей, которые хотят работать в наших лабораториях, начать новый бизнес или защищать эту страну. Дайте мне закон, который даст им шанс заработать гражданство. И я его подпишу немедленно."



# Работа на живот

Как-то раз летом на пляже я увидел мужчину лет 40 скромного сложения, на небольшом, скромных размеров животе которого была татуировка «Сколько можно на тебя работать?!».

Вспомнилось это вот почему. Руководство Азербайджана любит гордиться различными цифрами и показателями степени его развития, темпов развития, ускорения, победой на песенном конкурсе Eurovision, полученным правом провести в этом году этот конкурс у себя в Баку, самым высоким в мире флагштоком для своего флага, - правда, уже не самым высоким, - и так далее.

Руководство мало смущает то, что по показателям защиты прав человека, свободы слова и печати, бизнес-климата, проведения выборов, распространения коррупции в стране мы находимся на явно незавидных местах. «Субъективны они», - заявляют. «Завидуют нашим успехам», «аналогуолмаян» развитию, несправедливы, потому что мы мусульманская страна и т.д.

Азербайджанское НПО «Содействия экономическим инициативам»со ссылкой на отчет Службы экономических исследований Департамента сельского хозяйства США заявило, что самый высокий показатель в мире по продовольственному бюджету семей принадлежит Азербайджану. Еще один «мировой» показатель? Не торопитесь.

В Азербайджане расходы населения на продовольствие составляют 3/4 общих затрат на потребительские товары. Это означает, что кроме шмоток, которые носим на себе и транспортных расходов для проезда работу, работаем только на живот, важаемые.

Оглядываясь на свой бюджет, подтверждаю эти выводы. Все правильно, верно и справедливо! Вобщем, еще один «аналогуолмайан» показатель. С чем вас и себя поздравляю!..

***Чингиз Султансой***

# Səməd Seyidov AŞPA-da Azərbaycanla bağlı dinləmələrə etiraz edib


Səməd Seyidov

**Yanvarın 26-da Avropa Şurası Parlament Assambleyasının İnsan Hüquqları və Hüquq Komitəsində Azərbaycanla bağlı dinləmələr keçirilib. Dinləmələrdə iştirak edən Azərbaycanın hüquq müdafiəçiləri ölkədə insan haqlarının vəziyyəti barədə danışıblar. «İnsan Haqları Uğrunda» İctimai Birliyin sədri Eynulla Fətullayev «Yeni Müsavat» qəzetinə deyib ki, o, çıxışı zamanı vicdan məhbuslarının, o cümlədən Fərhad və Rafiq Əliyev qardaşlarının, eləcə də keçmiş səhiyyə naziri Əli İnsanovun azadlığa buraxılmasını tələb edib.**

**DİNLƏMƏYƏ ETİRAZ**

*Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov isə AzadlıqRadiosuna müsahibəsində deyib ki, o, çıxışı zamanı insan haqları ilə bağlı dinləmələr keçirilməsinə etiraz edib:* «Konkret olaraq demişəm ki, Avropa Şurasının Monitorinq Komitəsi var və bu Komitənin işi Azərbaycanın öhdəlikləri yerinə yetirməsini monitorinq etməkdir. Dedim ki, bu Komitə olduğu halda başa düşülmür ki, niyə eyni məsələnin müzakirəsinə İnsan Haqları Komitəsində şərait yaradılır?»

*Səməd Seyidov deyir ki, dinləmələr zamanı çıxış edənlərin çoxu siyasi məhbus məsələsinin Azərbaycana qarşı işlədilməsini pisləyib. Millət vəkilinin sözlərinə görə, o bildirib ki, «Amnesty International» Beynəlxalq İnsan Hüquqları Təşkilatının siyahısında olan 16 nəfərlə bağlı məlumatları təhlil ediblər:* «Təqdim olunan sənədlər arasında xeyli suallar doğuran məsələlər də var».

**MANDATINI DƏYİŞSİN, SONRA**

Müsahibimiz deyir ki, dinləmələr zamanı bir müddətdir Avropa Şurasından siyasi məhbus məsələsi üzrə məruzəçi mandatı altında Azərbaycana gəlmək istəyən Christoph Straesserin də mandatına toxunulub. Səməd Seyidovun sözlərinə görə, Azərbaycan nümayəndə heyəti bir daha mövqeyini vurğulayıb ki, siyasi məhbus anlayışının açıqlanması və başqa ölkələrə də şamil olunmasından sonra Azərbaycan öz qapısını Christoph Straesserin üzünə açacaq.

*«Dinləmələr zamanı qaldırılan məsələlərlə bağlı Azərbaycan nümayəndə heyəti hansısa vəd verdimi?»* sualına Səməd Seyidov belə cavab verdi:

- Sizin sualınıza konkret olaraq belə cavab verə bilərəm ki, Avropa Şurası ilə konstruktiv, obyektiv münasibətləri davam etdirməyə hazırıq. Qərəzli yanaşmanı qəbul etməyəcəyik və qərəzli yanaşmanın köklərini araşdırıb Avropa Şurasının üzvlərinə çatdıracağıq.

**PESSİMİST VƏ OPTİMİSTLƏR**

*Bəs hüquq müdafiəçiləri Avropa Şurasındakı dinləmələrdən nə gözləyir?* Leyla Yunus deyir ki, o, Avropa Şurasındakı müzakirələrin Azərbaycandakı insan haqları ilə bağlı vəziyyətə təsir edəcəyinə inanmır. Amma Novella Cəfəroğlu daha optimistdir, deyir ki, Avropa Şurasının baş katibi Thorbjørn Jaglandın yaxın aylarda Bakıya səfəri planlaşdırılıb və onun səfəri «vicdan məhbusları»nın azadlığa buraxılmasına müsbət təsir göstərəcək.

Bu yaxınlarda «Amnesty International» ötən ilin 2 aprel aksiyasında həbs olunmuş fəallar daxil olmaqla ümumilikdə 16 nəfəri «vicdan məhbus»u sayıb.

***Səadət Akifqızı***



# Əhməd Davudoğlu: Ya Türkiyə Minsk Qrupunda olmalı, ya da Fransa ordan çıxmalıdır

Türkiyə Fransanın ATƏT-in Minsk Qrupunun həmsədrliyindən çıxarılmasını istəyir. Rəsmi Ankaranın fikrincə, Paris «erməni soyqırımı»nı tanımayanları cəzalandıran qanunu qəbul etməklə obyektivliyini itirib. Bu barədə Türkiyənin Xarici İşlər naziri Əhməd Davudoğlu «CNN Türk» telekanalına müsahibəsində deyib. *«Sarkozi Cənubi Qafqaza səfəri zamanı Ermənistanda iki gün olduğu halda, Azərbaycanda bir neçə saat qalıb. Bu, onun qeyri-obyektivliyinin göstəricisidir»,* - Ə.Davudoğlu qeyd edib. Nazir həmçinin əlavə edib ki, Fransa ATƏT-in Minsk Qrupunda öz missiyasını davam etdirəcəksə, Türkiyə də bu qurumun üzvü olmalıdır.

Yanvarın 23-də Fransa Senatı «erməni soyqırımı»nı inkar edənlərin cəzalandırılmasını nəzərdə tutan qanun layihəsini qəbul edib. Qanun layihəsinin lehinə 127, əleyhinə isə 86 senator səs verib. Ermənistan Birinci Dünya müharibəsi zamanı Osmanlı Türkiyəsinin 1.5 milyon ermənini öldürdüyünü bildirir. Türkiyə isə soyqırımı iddialarını rədd edir. Ankara bəyan edir ki, 1915-1916-cı illərdə hər iki tərəf böyük itki verib.




Ən aktual, ən qaynar müzakirələr həftənin hər iş günü AzadlıqRadiosunun efirində. **Saat 17-dən 19-dək**. **AzadliqRadiosu.az** saytından verilişə qulaq asa və ya baxa bilərsiniz. Gecikəsəniz, AzadliqRadiosu.az saytında səs arxivindən verilişlərə sonradan da qulaq asa bilərsiniz.

Veriliş zamanı suallarınızı verin:
SMS: (+994 50 744 10 17) Telefon: 436 – 77 - 41
Elektron ünvan: efir@azadliqradiosu.az


Bakıda yeni istifadəyə verilən piyada keçidlərindən biri

# Nazirliyin bir ilə xərclədiyi yarım milyard manatın siyahısı

**Satınalmalar üzrə Dövlət Agentliyinin 2011-ci ildə keçirilmiş tenderlərin qeydiyyatı haqda sənədində göstərilib ki, Nəqliyyat Nazirliyi həmin il ümumilikdə 523 milyon 457 min 807 manat həcmində tender keçirib. Bu tenderlərin qalibləri arasında "Samur Holding" MMC, "Fİ-İnşaat" MMC, "İHİ" MMC, "Orion E"MMC, "Akkord", "Kəpəz V" MMC və digər şirkətlərin adları var.**

**HƏR KİLOMETRİ 2.3 MİLYON MANATA YOL TƏMİRİ**

Axırıncı şirkət – "Kəpəz V" MMC Nəqliyyat Nazirliyinin 2011-ci ildə elan etdiyi 18 tenderdən 5-nin qalibi olub. Şirkətə ümumilikdə 124 milyon manata yaxın iş sifariş olunub. Bunlar aşağıdakılardır:

- Goran-Naftalan avtomobil yolunun əsaslı təmiri – 14 milyon manat;

Gəncə avtomobil yolunun əsaslı təmiri – 20 milyon manat;

Bakı-Ələt avtomobil yolunun 50-69 kilomterlik sahəsinin yenidən qurulması – 44 milyon manat (hər kilometrə 2.3 milyon manat);

Zığ dairəsi-Heydər Əliyev hava limanı avtomobil yolundan Qala stansiyasına və dəniz sahilinə gedən avtomobil yolunun tikinti işləri – 38 milyon manat;

7 milyona Ziya Bünyadov prospekti ilə Əliyar Əliyev küçəsinin kəsişməsində yerləşən dəmir yolu xətti üzərində yol qovşağının reabilitasiya işlərinin aparılması – 7 milyon manat;

Kürdəmir-İmişli avtomobil yolunun əsaslı təmirinə - 7 miyon 600 min manat ayrılıb.

Nəqliyyat Nazirliyi "Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin tikintisi" layihəsi çərçivəsində Ələt qəsəbəsində tikilməsi nəzərdə tutulan yeni Liman Kompleksi ilə bağlı 142 milyon manat həcmində tendər keçirib.

**YOL QOVŞAĞI 125 MİLYON MANATA**

Ziya Bünyadov prospekti ilə Əbdülvahab Salamzadə, Alı Mustafayev və Hüseynbala Əliyev küçələrinin kəsişməsində yol qovşağının tikinti işləri ilə bağlı elan olunmuş tenderi isə "Körpü-Bina-Tikinti" MMC udub. Həmin yol qovşağının tikintisinə 125 milyon manat ayrılıb. Bundan başqa, "Gəncə-Körpü-Tikinti" MMC Ziya Bünyadov prospekti ilə Əhməd Rəcəbli küçəsinin kəsişməsində yol qovşağının tikintisi ilə bağlı elan olunmuş tenderdə də qalib gəlib. Bu yol qovşağının tikintisinə isə 32 milyon 500 min manat ayrılıb.

"Akkord" 43 milyon manata Ziya Bünyadov prospekti ilə Böyük-Şor küçəsinin kəsişməsində yol qovşağının tikintinisi ilə bağlı tenderdə qalib gəlib.

**41 MİLYON MANATLIQ TUNEL**

2011-ci ildə Bakıda müxtəlif tunellər, yeraltı keçidlərin tikintisinə ayrılan vəsaitlər haqqında da Komitənin məlumatında qeydlər var:

- Ziya Bünyadov prospekti ilə Müzəffər Nərimanov küçəsinin kəsişməsində tunelin tikintisi - 41 milyon 500 milyon manat (tenderi "İHİ" MMC udub);

- Neftçilər prospekti ilə Sərdar Səfərov küçəsinin kəsişməsində yeraltı piyada keçidinin tikintisi – 5 milyon manat.

Ümumilikdə 2011-ci ildə Nəqliyyat Nazirliyinin sifarişi ilə təxminən 141 milyon 880 min manat, "Azəryolservis" ASC-nin sifarişi ilə isə 381 milyon 580 min manat həcmində tender keçirilib. Bunlar Dövlət Agentliyinin 2011-ci ildə keçirilmiş tenderlər haqqında məlumatında göstərilən faktlar idi.

***Nüşabə Fətullayeva***

# Nəqliyyat Nazirliyi taksi maşınlara 5 il şərtini ləğv etdi


Taksi sürücülərinin Bakıdakı etirazları 16 yanvar 2012-ci il

*Nəqliyyat Nazirliyi taksi fəaliyyəti üçün avtomobillərin buraxılış ili ilə bağlı məhdudiyyəti aradan qaldırıb. Bundan sonra buraxılış ili 5 ildən artıq olan avtomobillərdən də taksi kimi istifadə etməyə icazə veriləcək. Bu barədə AzadlıqRadiosuna nazirliyin sözçüsü Namiq Həsənov məlumat verib. O deyib ki, nazirlik belə bir addımı sürücülərin müraciətindən sonra atıb:*

*«Almaniya, Yaponiya istehsalı olan maşınlar var ki, onlar 2003-2004-də istehsal olunsa da, yaxşı vəziyyətdədir. Bu səbəbdən də həmin maşınlara 5 illik lisenziya veriləcək. Amma keçmiş sovet maşınlarına, «Jiquli»lərə lisenziya verilməyəcək».*

Rəng məsələsində isə hər hansı güzəşt gözlənilmir. N.Həsənov deyir ki, Bakıda taksi kimi istifadə olunan avtomobillərin rəngi bənövşəyi və ya ağ olmalıdır. Bundan başqa, 5 illik lisenziya cəmi 5 min maşına veriləcək. Nəqliyyat Nazirliyi yanvarın 13-dən Dövlət Yol Polisi ilə birlikdə lisenziyasız taksilərə qarşı reydlərə başlayıb. Narazı taksi sürücüləri Bakının ayrı-ayrı yerlərində və Nəqliyyat Nazirliyinin qarşısında etiraz aksiyaları keçiriblər. Sonuncu aksiyada 4 nəfər saxlanılıb. Onlara 5 sutka inzibati həbs cəzası verilib.

***Maarif Çingizoğlu***



**Dəyərli oxucular!** AzadlıqRadiosunun korrupsiya halları ilə bağlı maraqlı araşdırmalarını, xəbər və reportajlarını **AzadlıqRadiosu.az** saytında **"Korrupsiometr"** bölümündə oxuyun. Səs yazılarını dinləyin, videolara baxın.

# İ.Həmidov: «Yol polisinin aldığı 5-3 manat oğurlanan milyonların yanında bir şey deyil»

**AzadlıqRadiosunda yeni polemika başlayır – Korrupsiometr. Bu proqramda hər dəfə ölkə həyatının bir sahəsi götürülüb orada korrupsiya və rüşvət riskləri ətraflı müzakirə edilir. Proqram hər həftənin cümə axşamı günü efirdə olacaq.**

Korrupsiometrin ilk buraxılışında yol polisində rüşvət riskləri müzakirə edilib. Qonaqlar Yol Polisi İdarəsinin hərəkətin təhlükəsizliyinin təbliği və ictimai qurumlarla əlaqələr şöbəsinin inspektoru Kamran Əliyev, keçmiş Daxili İşlər naziri İsgəndər Həmidov, Gürcüstanda yaşayan azərbaycanlıların "Qeyrət" Xalq Hərəkatının sədri Əlibala Əsgərovdur.

**ÇARƏ AXTARIŞI: YOL POLİSİNDƏ RÜŞVƏTİ BİRDƏFƏLİK NECƏ KƏSMƏLİ?**

*Kamran Əliyev* qeyd etdi ki, hazırda


Rəna Səfərəliyeva

Azərbaycanın yol polisinin sürücüdən rüşvət almasının qarşısını almaq üçün bütün zəruri tədbirlər görülüb: "Istənilən şəkildə nağd pul vəsaiti almaq patrul xidməti inspektorlarına qadağan olunub. Və bilirsiniz ki, ötən il fevral ayının 14-də cənab prezidentin fərmanına əsasən, cərimələrdən gələn məbləğin 25 faizi yol patrul xidməti inspektorlarının maaşına əlavə olunur. Bu gün kifayət qədər dövlət tərəfindən əməkdaşlara şərait yaradılıb. Bilirsiniz, hər halda korrupsiya pozmalarına yol verdiyinə görə ötən il ərzində 39 əməkdaş işdən azad edilib. Bu da onu deməyə əsas verir ki, bəli, ayrı-ayrı əməkdaşlarımız tərəfindən bu cür hərəkətlərə yol verilib və onun qarşısı alınıb".

*Keçmiş Daxili İşlər naziri İsgəndər Həmidov* da bildirir ki, Azərbaycanda Daxili İşlər Nazirliyi sistemində ən ağır şəraitdə işləyən yol polisi əməkdaşlarıdır, onların hansınınsa aldığı 5-3 manat da dövlətin korrupsiya yolu ilə oğurlanan milyonlarla pulunun yanında ciddi bir şey deyil: "Rüşvət var, cəmiyyət başdan ayağa rüşvətxor cəmiyyətdir. Cəmiyyət rüşvət yaradıb, cəmiyyət korrupsiya yaradıb, yol polisi də onun bir balaca qoludur. Amma bu rüşvətxorluğa qarşı gedən mübarizə tək repressiv qaydada olmamalıdır. Rüşvəti yaradan amilləri aradan götürmək lazımdır. Korrupsiya haqqında veriliş hazırlananda çox xahiş edirəm korrupsionerləri dəvət edin. Korrupsiya bilavasitə siyasi hakimiyyət elitasının aldığı pulla, böldüyü pulla əlaqədardır".

*Şəffaflıq Azərbaycan Təşkilatının icraçı direktoru Rəna Səfərəliyeva* da müzakirə iştirakçılarına deyib ki, 2005-ci ilin mart ayından 2010-cu ilin oktyabrın 1-nə qədər polislə bağlı onlara 3000 şikayət olub, bu da ümumi şikayətlərin 10 faizidir. Bu şikayətlərin də təxminən 70 faizi yol polisi ilə bağlı olub: "Əvvəllər yol polisi ilə bağlı bizdə şikayət çox idi. 3 il qabaq yol polisi sahəsində ciddi islahatlar keçirilib, onların maaşı qaldırılıb, yaxşı maşınlar və avadanlıqlar alınıb, şikayətlərin sayı bir xeyli düşüb. Altı aydan sonra yenidən qalxıb. Ciddi islahatlar 2008-ci ildə aparılıb, 2009-cu ildə bir qədər azalıb, sonra yenidən qalxıb".

*Dinləyicilərdən SMS-lə polemikaya qoşulan Nadir Ömər* qeyd edib ki, yolda pul istəyən polis əməkdaşları adətən bunun əsas hissəsini özlərindən yuxarı rəislərə verdiklərini deyirlər. Kamran Əliyev onun həmkarları sırasında bu cür iddiaları səsləndirənlərin olduğuna inanmadığını deyib.

**RESEPT: GÜRCÜSTAN NƏYİ NECƏ ETDİ Kİ...**

Gürcüstandan polemikaya qoşulan


Əlibala Əsgərov


AzadlıqRadiosunun Bakı Bürosunda studiyada İsgəndər Həmidov (sağda), Fariz Namazlı (ortada) və Kamran Əliyev (solda)

*Qeyrət Xalq Hərəkatının sədri Əlibala Əsgərov* son bir neçə ildə bu ölkədə yol polisində rüşvətin necə kəsildiyini izah edib: "Gürcüstanda yol polisində rüşvət 90-95 faiz aradan götürülüb. Hakimiyyət dəyişikliyi olandan sonra minlərlə əməkdaş istefaya göndərilib. Onların yerinə yeni gənc nəsil, Gürcüstanda aparılan islahatları dərindən öyrənmiş, savadlı polislər işə götürüldü. Maşınlar kompyuterləşdirildi. Qanun diktaturası yarandı. Hər kəs qanun pozulduğu halda cərimələndi və cərimələr bank hesabı ilə köçürüldü. Əldən-ələ bir manat belə keçmədi. Rüşvət verildiyi halda cinayət işi açıldı. Yol polisi ilə sürücülər arasında bütün təmas kəsildi".

*Dinləyicilərdən daha biri - Mərdəkan qəsəbəsindən Əmir* SMS yazaraq yol polisi rəsmisindən sürücülük vəsiqəsinin alınması zamanı 1000 manata qədər rüşvət istənilməsinin səbəblərini soruşub. Kamran Əliyev isə bu iddianı da rədd edərək sürücülük vəsiqəsinin verilməsi üçün dövlət rüsumunun 15 manat olduğunu deyib.

Debatlar zamanı yol polisində rüşvətin birdəfəlik kəsilməsi üçün başqa ideyalar da səsləndi. Məsələn: "Daxili İşlər Nazirliyi, ya Prezident Administrasiyası nəzində ictimai nəzarət palatası yaranmalıdır. Orada yalnız polis işçiləri yox, hüquqşünaslar, ziyalılar, mədəniyyət xadimləri, sürücülərin özləri olmalıdır".

**Verilişi tam dinləmək üçün AzadliqRadiosu.az saytına daxil olun.**

***Ülviyyə Əsədzadə, Gülər Qasımova***

# "ATAMIN SAQQALINI ZORLA 3 DƏFƏ QIRXIBLAR"

## "Saqqalın zorla qırxılmasını şərəf və ləyaqətin təhqiri kimi qiymətləndirmək olar"



İbadətə gəlmiş pakistanlı

*Azərbaycan Konstitusiyası vətəndaşlara dini etiqad azadlığı verir. Bu etiqad azadlığı insanların dini baxışlarına görə istədiyi xarici görünüşdə olmasını ehtiva edirmi? Qanun insanların başını bağlamasına, saqqal saxlamasına, istənilən uzunluqda şalvar geyinməsinə icazə verirmi? Saqqalları zorla qırxılan insanların hansı hüquqları pozulur? Bu mövzu "İslam və demokratiya" proqramında müzakirəyə çıxarılıb. AzadlıqRadiosuna verilən məlumata görə, yanvarın 12-də Zaqatalada 3 nəfər dindar polis şöbəsinə aparılıb və onların zorla saqqalları qırxılıb. Yuxarı Tala kənd sakini Vasif Balaşov şöbədə "ya saqqalını qırxmağa razı ol, ya da həbsə" seçimi ilə üz-üzə qaldığını iddia edir. Onun sözlərinə görə, özü bir tərəfə qalsın, indiyə qədər 3 dəfə atasının saqqalı qırxılıb: "Onu zorla aparıb polis şöbəsinə saqqalını qırxıblar. Yaşlı adamdır, zorla gəzir, belə şey yenə təkrarlansa, necə dözəcək? Bu vaxtadək rəsmi şikayət etməmişik, amma indi prezidentə də müraciət edəcəyik. Bizi hədələməsələr, ədəb-ərkanla söhbət etsələr, dözərik. Biz saqqal saxlamaqla özümüzü fərqləndirmirik, sadəcə, dinimizi yaşayırıq".*

**ŞİDDƏTLƏ QINAMAQ LAZIMDIR**

Hüquq müdafiəçisi, İslam, Demokratiya və İnsan Haqları Mərkəzinin rəhbəri Aytəkin İmranova hesab edir ki, əgər belə bir hal baş veribsə, onu qınamaq lazımdır: "Çünki burada şərəf və ləyaqət təhqir olunur. Kimsə dinə inanmaya bilər, amma buna görə başqasının davranışına müdaxilə etmək olmaz".

**HƏR CÜR GEYİNƏN İNSANLAR VAR**

Verilişin digər qonağı, dinşünas alim, BDU-nun müəllimi Saleh Kazımov hesab edir ki, indi Azərbaycanda bu cür halların kütləvi olduğunu demək olmaz. S.Kazımov hesab edir ki, bu, dövlətin maraqlarına xələl gətirmək üçün təxribat xarakterli bir hadisə də ola bilər.

Aytəkin İmranova: "Bu halların kütləvi olmadığını demək düzgün deyil. Çünki belə hadisələr mütəmadi olaraq baş verir. Bir müddət əvvəl Qubada, Xaçmazda da yaşanmışdı. Hətta Bakıda da müəyyən şəxslərin məscidə daxil olmasının qarşısı alınıb".

**GÜNAH VƏTƏNDAŞDA DEYİL**

S.Kazımov: "Peyğəmbərin dövründə bəzi adamlar təkəbbürlülük edir, parçanın qıt olduğu bir dövrdə uzunbalaq şalvar geyirdilər. O dövrdə peyğəmbər fərqli tərzdə geyinib ki, nümunə olsun. Ona görə də bəzi insanlar da belə geyinir. Saqqala gəlincə, bəzən biz İslamın mahiyyətindən uzaqlaşıb, formal məsələləri böyüdüb, onların üzərində dayanırıq. Unuduruq ki, Allahtəala bizim zahiri görkəmimizə yox, qəlblərimizə baxır, mallarımıza deyil, əməllərimizə baxır".

A.İmranova: "Bunları bilməyən vətəndaşda günah yoxdur. Çünki din işləri üzrə qurumlar var. Amma indi ölkədə İslamın çox yüksək demokratik dəyərləri təbliğ edilmir, maarifləndirmə yoxdur".

**SAQQALIMI QIRXIRAMSA, DEMƏLİ KAFİRƏM?**

S.Kazımov: "Mən dini həyat yaşayıramsa belə, cəmiyyətə adaptasiya olmalıyam. Şəxsən mən 15 ildir dini həyat yaşayıram, saqqalımı da qırxıram, kostyum da geyinirəm, qalstuk da taxıram. İndi bu deməkdir ki, kafirəm?"

S.Kazımov hesab edir ki, bu cür məzhəb görüşlərini din görüşləri içində vermək düzgün deyil. Və hər bir kəs geyimində, davranışında diqqətli olmalıdır. Aytəkin İmranova isə belə halla üzləşən insanlara birbaşa məhkəməyə getməyi, rəsmi şəkildə şikayət etməyi məsləhət görür.

***Fərəh Sabirqızı***

# Azərbaycan ətraf mühit indeksində 111-ci yerdədir

*2012-ci ilin Ətraf Mühit İndeksi üzrə hesabatı Birləşmiş Ştatların Yel və Kolumbiya universitetləri Dünya İqtisadi Forumu ilə birlikdə hazırlayıb. İndeks 132 ölkəni əhatə edir, ətraf mühit siyasətinin 10 kateqoriyası üzrə hazırlanıb. Bu kateqoriyalara hava və suyun çirklənməsi, iqlim dəyişikliyi, biomüxtəliflik, meşə idarəçiliyi, balıq sənayesinin idarəçiliyi daxildir. Hesabatda Qazaxıstanın 129-cu, Rusiyanın 106-cı yerdə olması da narahatlıq doğurur. Layihədə iştirak edən ekspert A.Hsu deyir ki, bu ölkədə havanın keyfiyyəti getdikcə daha çox aşağı düşür. Ətraf mühitlə bağlı sağlamlığın indikatoru sayılan uşaq ölümündə də ciddi mənfi tendensiya var.*

**AZƏRBAYCANIN TƏBİİ QAZA KEÇMƏSİ**

2012-ci ilin indeksində 111-ci yeri tutsa da, araşdırma göstərir ki, Bakı ətraf mühit standartları üzrə ciddi irəliləyiş qazanıb. A.Hsu deyir ki, Azərbaycanda «iqlim yaxşıya doğru dəyişir. Azərbaycan üçün həlledici an 2006-cı ildə gəldi. Bu ölkə təbii qaz ixracatçısına çevrildi. İnkişafda olan ölkələrdə elektrik hasilatı üçün kömür yandırılmasına baxmayaraq, Azərbaycan daha təmiz təbii qaza keçdi.

İndeksin sonundakı ölkə İraqdır. A.Hsu deyir ki, bu ölkədə hökumət qurulmayıb deyə, ətraf mühitin nəzərə alınmaması başadüşüləndir. 2012-ci ilin Ətraf Mühit İndeksində ilk yerləri İsveçrə, Latviya, Norveç, Lüksemburq və Kosta-Rika tutur. Böyük Britaniya 9-cu, Birləşmiş Ştatlar 49-cu, Çin 116-cı yerdədir.



# Amerika nağılı: Mənimlə evlənərsənmi?

**Kimlərə evlənmək hüququ verilməlidir? Bunu kim müəyyən etməlidir? Federal hökumət, yerli hökumətlər, yoxsa ictimaiyyət? İllərdir amerikalıları düşündürən və ictimai müzakirələrə sövq edən bir sual var - eyni cinsdən olan şəxslərə bir-biri ilə evlənmək hüququ verilməlidirmi? Bunun tərəfdarları və əleyhdarlarının hərəsinin öz arqumentləri var. Uzun müddət davam edən mübahisələrə baxmayaraq, tərəflərdən heç biri üstünlük qazana bilməyib.**

Ötən il Nyu-York ştatında eyni cinsdən olan şəxslərin ailə qurmasına icazə verilib. Eyni cinsli ailə tərəfdarları bunu dönüş nöqtəsi hesab edirlər. Hazırda ABŞ-ın 6 ştatında və Vaşinqtonda homoseksual evliliyə icazə verir. Bu il belə ştatların sayı ikiqat arta bilər. Altı ştatda bu məsələ müzakirə olunur, Kaliforniyada da müvafiq qanuna ştatın Ali Məhkəməsində baxılır.

Bu yaxınlara qədər amerikalıların əksəriyyəti eyni cinsdən olan iki şəxsin ailə qurmasını çox qəribə, hətta anormal sayırdılar. Ancaq məşhur homoseksual cütlüklərin ictimaiyyət arasında




görünmələrinin sayının artması, belə cütlüklərin iştirak etdiyi televiziya şoularının və filmlərin çoxalması, siyasətdə, biznesdə, incəsənət dünyasında tanınmış homoseksualların görünməsinin adiləşməsi insanların düşüncə tərzində dəyişikliyə gətirib çıxarıb.

**«HOMOSEKSUALLARIN DA AİLƏ QURMASININ QADAĞAN EDİLMƏSİ VƏTƏNDAŞ HÜQUQLARININ POZULMASIDIR»**

Bu həftə təqaüdə çıxmış məşhur konqresmen Barney Frank kişi partnyoru ilə evlənmək planını açıqlayıb. O, homoseksual olduğunu ictimaiyyətə açıqlayan ilk amerikalı konqresmendir. Heç də təəccüblü deyil ki, homoseksuallara nikah hüququ verilməsini ən çox dəstəkləyən gənc amerikalılardır. 2010-cu ildə aparılan araşdırmanın nəticələrinə görə, gənclərin yarıdan çoxu bunu dəstəkləyir. Yaşı 30-45 arasında olanların təqribən yarısı, yaşı 45-60 olanların isə 40 faizə yaxını homoseksuallara evlənmək hüququ verilməsinin tərəfdarıdır.

Təqaüdçülər arasında isə bunun tərəfdarları 30 faizə yaxındır. Bu rəqəmlərdən görünür ki, amerikalılar homoseksuallara evlənmək hüququ verilməsinin tərəfdarlarının arqumentlərini qəbul etməyə başlayıblar. Onların əsas arqumenti isə budur ki, fərqli cinslərin ailə qurmasının qadağan edilməsi kimi, homoseksualların da ailə qurmasının qadağan edilməsi vətəndaş hüquqlarının pozulmasıdır.

Bu hərəkatın güclü əleyhdarları da var. Amerikalıların çoxu düşünür ki, evlilik Allahın yalnız kişi və qadın arasında buyurduğu müqəddəs bir bağlılıqdır. Respublikaçılardan prezidentliyə namizədliyə 4 iddiaçıdan 3-ü bu fikri bölüşür. Homoseksual icması ABŞ prezidenti Barak Obamanı müttəfiqi saysa da, hətta Obama deyir ki, nikahla bağlı fikirlər hələ təkmilləşir.

# Putinin seçkidəki rəqibləri kimdir?


Vladimir Putin

*Rusiyanın Mərkəzi Seçki Komissiyası müxalifətdəki "Yabloko" Partiyasının lideri Qriqori Yavlinskini seçkidən kənarlaşdırıb. Komissiya yanvarın 27-də bildirib ki, onun martın 4-də keçiriləcək prezident seçkilərinə namizəd kimi qatılmaq üçün topladığı imzaların az qala dörddə biri etibarsızdır. Rusiya qanunlarına görə, prezidentliyə namizəd olmaq istəyən şəxs 2 milyon imza toplamalıdır. Yavlinski liberal müxalifətin nümayəndəsidir, ölkədə demokratik islahatların aparılması, azad bazar iqtisadiyyatının tam bərqərar olması uğrunda mübarizə aparır. Partiya hazırkı baş nazir Vladimir Putini və onun komandasını hakimiyyətdən getməsinə çağırır.*

**KOMİSSİYANIN BELƏ BİR QƏRAR VERƏCƏYİ GÖZLƏNİLMƏZ DEYİLDİ**

Komissiya rəsmiləri Yavlinski üçün toplanan imzaların bir hissəsinin etibarsız olması haqda bu həftənin əvvəli bildirmişdilər. Yavlinski isə demişdi ki, onu yarışdan kənarlaşdırmaq cəhdində məqsəd seçkidə həqiqi rəqabəti məhv etməkdir: "Qərar siyasi xarakter daşıyır və qətiyyən imzaların həqiqi olub-olmaması məsələsi ilə bağlı deyil".

**İNDİYƏCƏN PREZİDENT SEÇKİLƏRİNDƏ İŞTİRAK ÜÇÜN 5 NAMİZƏD QEYDİYYATDAN KEÇİB**

Bunlar baş nazir Putin, kommunistlərin lideri Gennadi Züqanov, "Ədalətli Rusiya" Partiyasının sədri Sergey Mironov, liberal demokratların rəhbəri Vladimir Jirinovski və milyarder Mixail Proxorovdur. Həm Züqanov, həm də Proxorov Yavlinskini müdafiə ediblər və onun namizədliyinin qeydə alınmasına çağırıblar.


Qriqori Yavlinski

Bunlar arasında yalnız kommunistlərin lideri hakimiyyəti açıq tənqid edir, milyarder Proxorovun tənqidləri isə yumşaq xarakterlidir. MSK bundan əvvəl daha bir müxalifət lideri – millətçi bolşevik Eduard Limonovun namizədliyini qeydə almaqdan imtina etmişdi.

# Şəkidə e.ə II minilliyə aid kurqanlar dağıdılıb

Şəkidə bizim eradan əvvəl II minilliyə aid kurqanları traktorlarla şumlayıblar. Elə Şəkiyə səfərimizin əsl məqsədi də belə bir hadisənin baş verib-vermədiyini yerindəcə aydınlaşdırmaq idi.

**«AĞDƏRƏ KURQANLAR QRUPU»**

Şəkinin Kiçik Dəhnə kəndi yaxınlığında yerləşən həmin kurqanları 2006-cı ildə arxeoloq Nəsib Muxtarov aşkarlayıb. Həmin ərazinin səmadan topoqrafik şəkli çəkilib və burada irili-xırdalı təxminən 136 kurqanın olduğu rəsmi təsdiqini tapıb. İndiyə kimi kurqanlardan 5-i üzərində arxeoloji qazıntı aparılıb. Dəfn kameralarında (qəbirlərdə) aşkarlanan ölüyə məxsus bəzək və müxtəlif məişət əşyalarının tədqiqi kurqanların eradan 2000 il əvvələ aid olduğunu göstərib. Mədəniyyət və Turizm Nazirliyi kurqanların ölçüsünü, sayını və dərinliyini əks etdirən xəritə də hazırlayıb. Hətta kurqanlara ad belə verilib – «Ağdərə Kurqanlar Qrupu».

**«120 KURQAN MƏHV EDİLİB»**

Arxeoloq Nəsib Muxtarov deyir ki, Azərbaycan tarixinin qədimliyi və zənginliyinin əyani sübutu olan bu kurqanların 2012-ci ilin aprelindən geniş tədqiqi nəzərdə tutulubmuş. Amma dekabrın sonunda həmin əraziyə gedəndə gördüklərinə inana bilməyib. Kurqanların yerüstü hissəsinin tamamilə şumlanmasına şahid olub: «Elə bil kurqanları əlimizlə qoyub getmişdik. Amma gəlib o faciəni gördük ki, 130 kurqandan cəmi 5-6-sı qalıb. «Ağdərə kurqanları»nın mühafizə zonası sənədi Mədəniyyət və Turizm Nazirliyində yaxınlarda təsdiq olunmalı idi. Amma, təəssüf ki, biz onun təsdiqinə çata bilmədik. Kurqanlar məhv edildi. Kurqan - bütövlükdə bir konsepsiyadır. Onun


Şumlanmış ərazi

yerüstü hissəsi ilə yeraltı – dəfn kameraları vəhdətdədir. Bu, iki dünyanın vəhdəti deməkdir. Amma onun birinci dünyası - yerüstü hissəsi məhv edilib».

**«MƏSULİYYƏTİ BƏLƏDİYYƏ VƏ İCRA NÜMAYƏNDƏSİ DAŞIYIR»**

2010-cu ildə Mədəniyyət və Turizm Nazirliyinin Şəki şöbəsi bu ərazilərin mühafizə və qorunması üçün Kiçik Dəhnə kənd bələdiyyə sədri və icra nümayəndəsi ilə müqavilə imzalayıb.



Həmin müqavilənin şərtlərinə əsasən, hər iki orqan kurqanların mühafizəsinə məsuliyyət daşıyır:

**«YALNIZ KƏNDLİYƏ MƏXSUS TORPAQLARDAKI KURQANLAR ŞUMLANIB»**

Şəki Şəhər İcra Hakimiyyətinin Kiçik Dəhnə kəndi üzrə nümayəndəsi Aslan Mirhəsənov isə deyir ki, kurqanların hamısının üzəri şumlanmayıb. Şumlanmış torpaqlar isə Nazirlər Kabinetinin 1999-cu il tarixli sərəncamı ilə 92 kənd sakininə məxsusdur: «Dövlət aktı ilə bu torpaqlar vətəndaşlara məxsus olduğundan bu il heç nə edə bilmirik. Qalmışıq belə çıxılmaz vəziyyətdə».

Aslan Mirhəsənov deyir ki, kəndlilər torpaqlarının müqabilində onlara ya kompensasiya ödənilməsini, ya da başqa yerlərdən torpaq verilməsini istəyirlər.

**«BU, RAYON SƏVİYYƏSİNDƏ HƏLL EDİLƏN MƏSƏLƏ DEYİL»**

Kiçik Dəhnə kənd bələdiyyəsinin sədri Mahir Qasımov isə deyir ki, bu, nə yerli icra hakimiyyəti, nə də bələdiyyə səviyyəsində həll olunası məsələdir: «Bu, respublika, Nazirlər Kabineti səviyyəsində həll olunmalıdır".

Kənd sakinləri isə bu məsələdə dövlətlə anlaşmağın tərəfdarlarıdır. Hətta bu torpaqları dövlətə bağışlaya biləcəklərini də söyləyirlər. Hərçənd onlar indi daha çox öz dolanışıqlarının hayındadırlar. Kurqanlar aşkarlanan


Ağdərə kurqanları»nın arxeoloji materialları

ərazidə 5 hektar torpaq sahəsi olan kənd sakini Zabir İbrahimxəlilov taxıl əkib, becərir. Deyir ki, ailəsinin əsas qazanc yeri bu torpaqdır.

***Nüşabə Fətullayeva***

# "Ədəbi Azadlıq-2012" hekayə müsabiqəsi başlanır



**Fevralın 15-də "Ədəbi Azadlıq-2012" hekayə müsabiqəsinə start verilәcək. AzadlıqRadiosunun ədəbiyyat portalı – OxuZali.az-da artıq üçüncü ildir ki, keçirilən müsabiqəyə internet məkanında çap edilməmiş əsərlər qəbul ediləcək. Hekayələr üçün heç bir mövzu məhdudiyyəti yoxdur.**

Hekayələrin maksimum işarə həddi 9 mindir (sözlər arasında boşluqlar işarə sayılmamaq şərtilə). Ötən iki ildə olduğu kimi, müsabiqə 3 mərhələdə keçiriləcək. 1-ci və 3-cü mərhələlərin nəticələrinə əsasən, münsiflərdən ən çox bal alanlar müsabiqənin mükafatçıları olacaqlar. Müsabiqənin baş mükafatı notebook-dur. 2-ci və 3-cü yerləri tutanlar da net-book ve e-kitab oxuma qurğuları ilə mükafatlandırılacaq. Müsabiqəyə göndərilmiş hekayələrdən 50-si ayrıca kitab halında çap ediləcək.

**Müsabiqə haqqında daha ətraflı məlumatları AzadliqRadiosu.az saytının "Oxu zalı" portalından almaq olar.**

# "Eurovision 2012"nin baş prodüseri: "Bilirik ki, Azərbaycanda müəyyən çətinliklər var"


«Eurovision 2012»nin rəmzi açarının təhvil verilməsi

**MÜSABİQƏ «ÖZ ALOVUNU YANDIR» ŞÜARI ALTINDA BAŞ TUTACAQ**

*"Şəhərin xəritəsini almaq üçün mən hökumət binasının yaxınlığında Dövlət Turizm İnformasiya Mərkəzinə getdim. Amma onlarda bir dənə də olsun xəritə yox idi. Mən taksiyə oturdum. Amma taksi sürücüsü gedəcəyim hotelin harada yerləşdiyini bilmirdi. İngilis dilində də heç nə başa düşmürdü. Hoteldə isə indiyə kimi nağd pul ödəyirəm, heç bir kredit kart qəbul etmirlər. Getdiyim restoranlarda da həmçinin".*

Almaniyadan gələn jurnalistlərdən biri "Eurovision 2012" mahnı müsabiqəsinin yanvarın 26-da keçirilən ilk mətbuat konfransında Bakıda olduğu vaxt rastlaşdığı problemlərdən danışıb. O, təşkilatçılardan soruşub ki, 3 ay ərzində Bakı bu problemləri aradan qaldıra biləcəkmi?

Mətbuat konfransında "Eurovison" mahnı müsabiqəsinin baş prodüseri Jon Ola Sand, Eurovision" müsabiqəsinin təşkilati işlər üzrə rəhbəri Sietse Bakker, Eurovision TV-nin direktoru Jorgen Franck, «Eurovision-2012»nin icraçı prodüseri Adil Kərimli də iştirak edib. "Eurovision" mahnı müsabiqəsinin baş prodüseri Jon Ola Sand dedi ki, Bakıda təşkilatçılar tərəfindən həll edilməyəcək problem görmür.

**"BƏLİ, BİZ BU KAMPANİYA HAQQINDA EŞİTMİŞİK"**

Baş prodüser Azərbaycanda bir qrup hüquq müdafiə təşkilatının Bakıda keçiriləcək «Eurovision 2012» musiqi yarışması ilə bağlı «Azadlıq musiqisi qeyri-azad ölkədə» adlı kampaniyaya başladığından da xəbərdar olduqlarını bildirib: "Bəli, biz bu kampaniya haqqında eşitmişik. Bilirik ki, Azərbaycanda müəyyən çətinliklər var. Biz hələ də düşünürük ki, Eurovision pozitiv olan bir şeydir. Bu, mədəniyyət tədbiridir, bütün Avropadan insanları bir yerə yığır və onlar bunu qeyd edirlər".

Kampaniyanı keçirən hüquq müdafiəçiləri isə Avropa Şurası və Avropa Yayım Şurası arasında imzalanan memorandumu xatırladıb deyirlər ki, bu memorandum məhz Avropa Yayımçılar Birliyinə üzv olan ölkələrdə insan hüquqlarına sadiqlik prinsiplərini rəhbər tutan bir sənəddir.

**"AVROPA YAYIMLAR BİRLİYİ MEDİANIN AZADLIĞI İLƏ BAĞLI DƏRİN QAYĞILANIR"**

"Eurovision" müsabiqəsinin təşkilati işlər üzrə rəhbəri Sietse Bakker bildirdi ki, bizim belə bir razılaşmamız yoxdur: "Eurovision" müsabiqəsi qeyri-siyasi bir tədbirdir. Ölkənin milli, siyasi ab-havasını "Eurovision" mahnı müsabiqəsi nöqteyinəzərilə ittiham etmək bizdən asılı deyil. Lakin Avropa Yayımlar Birliyi medianın azadlığı ilə bağlı dərin qayğılanır. Mayda 100-dən çox ölkədən 1600-dən çox jurnalist gələcək və biz zəmanət almışıq ki, gələn media işçiləri öz işlərini azad şəkildə görə biləcək. Və razılaşmaya hörmətsizlik ediləcəyinə inanmaq üçün heç bir səbəbimiz yoxdur".

**BİLETLƏRİN QİYMƏTİ VƏ MÜSABİQƏYƏ ÇƏKİLƏN XƏRCLƏR HƏLƏ Kİ, BƏLLİ DEYİL**

«Eurovision 2012»nin icraçı prodüserinin sözlərinə görə, biletlərin satışına dair qiymət siyasəti hazırda işlənməkdədir: "Biletlərin dəqiq sayı, kateqoriyaları və sair detallı məlumatlar qısa müddətdə mətbuata bildiriləcək".

**«BAKI «EUROVİSİON»A EV SAHİBLİYİ ETMƏYƏ TAM HAZIRDIR»**

Yanvarın 25-də Bakıda «Eurovision 2012»nin rəmzi açarının təhvil verilməsi mərasimi keçirilib. Mərasimində «Eurovision 2011»ə ev sahibliyi etmiş Düsseldorf şəhərinin meri «Eurovision» mahnı müsabiqəsinin rəmzi açarını Bakı Şəhər İcra Hakimiyyətinin başçısına təqdim edib.

**««LİGHT YOUR FİRE»**

«Eurovision 2012» «Light your fire!» (Öz alovunu yandır!) şüarı altında baş tutacaq.



Azərbaycanda keçiriləcək "Eurovision" mahnı müsabiqəsinin loqosu

Şüarı təsvir edən loqoda Azərbaycan mədəniyyətində xüsusi yeri olan od, Azərbaycan musiqisini xarakterizə edən rəqs, şəffaflıq, əmin-amanlıq və sülhsevərliyi təcəssüm etdirən günəş, ay və ulduzlar təsvir olunub.

***Nüşabə Fətullayeva***

# «Facebook»da ədəbsiz sözlər – bu, dəbdir, yoxsa tərbiyəsizlik?

Hər həftənin cümə axşamları saat 23-dən gecəyarısınadək AzadlıqRadiosunun yeni layihəsi Facebook məkanında baş verən maraqlı olayları diqqətinizə çatdırır, sosial şəbəkələrdəki yeniliklərlə sizi tanış edir, Facebookda xüsusi fəallığı ilə fərqlənən şəxslər ilə söhbətlər aparır. Bu yayım eyni vaxtda AzadlıqRadiosununFacebook Fane Pageində də yayımlanır ki, Facebook istifadəçiləri canlı olaraq şərhlər yaza bilsinlər. AzadlıqFM-in arxiv səhifəsi də var.



# Soyunan müsəlman aktrisalar


Golshifteh Farahani, 18 yanvar 2012

**İran aktrisası Golşifte Farahaninin çılpaq şəkilləri müsəlman icmalarının, xüsusilə də İran rəsmilərinin qəzəbinə tuş gəlib. "Madame le Figaro" jurnalında dərc etdirdiyi şəkillərdən sonra bu xanımın İrana girişi ömürlük qadağan edilib. Artıq İranın Mədəniyyət və İslam qaydaları naziri bu haqda yazılı xəbərdarlığı Farahaniyə göndərib.**

**VEENA MALİKDƏN ATASI İMTİNA EDIB**


Pakistanlı aktrisa Veena Malik, 19 aprel 2011

Veena Malikin ötən ilin dekabrında Hindistandanın FHM jurnalının üz qabığında demək olar lüt şəkilləri dərc olunub. Şəkildə pakistanlı xanımın yalnız intim yerləri örtülüb. Bu təsvirlərə görə onun vətənində, sözün əsl mənasında, qiyamət qopub. Hətta aktrisanın valideynləri də ondan imtina ediblər. Atası fotoların real olduğunun təsdiqlənəcəyi təqdirdə, qızının cəzalandırılmasını tələb edib.

Pakistanın Daxili İşlər naziri Rehman Malik deyib ki, hadisə araşdırılacaq və əgər şəkillərin orijinal olduğu aşkarlansa, aktrisa cəzalandırılacaq. 33 yaşlı Malik isə şəkillərin gerçək olmadığını, montaj edildiyini bildirib və jurnalı məhkəməyə verəcəyi ilə hədələyib.

**ŞAHİN SİNƏSİNİ AÇMAQLA MƏHDUDİYYƏTLƏRDƏN QURTULMAQ İSTƏYİR**



Berlindəki türk qızı Sila Sahin

25 yaşlı türk əsilli Sıla Şahin də özünün lütəryan şəkilləri ilə müsəlman fanatlarını təəccübləndirib. O, Almaniyadakı "Playboy" jurnalı üçün sinəsi çılpaq halda poza verib. Sonradan Şahin deyib ki, özünü müsəlman aləmindəki qadağalardan azad etmək üçün bu cür şəkillər çəkdirib. Lakin Sılanın ailəsi onun bu seçimini, konservativ məhdudiyyətlərə qarşı etirazını dəstəkləməyib.

**NADİA SƏNƏTİ NAMİNƏ SOYUNUB**

Digər müsəlman aktrisa Nadia Boussetta isə "Tunivision" jurnalı üçün soyunub. Daim qısa jilet və cins şalvarda gəzən Nadia başını da açıq saxlayır. Artıq müsəlman ölkələrində onun "Tunis nağılları" adlı filminə embarqo qoyulub. Facebook səhifəsində Nadianın ünvanına təhqiramiz şərhlər yazılıb. Aktrisa isə öz hərəkətində pis bir şey görmür və bu şəkilləri sənəti naminə çəkdirdiyini bildirir.

# AzadlıqRadiosunda verilişlər:

| | |
|---|---|
| 8:00 | Qafqaz Qovşağı /Azadlıq Bölgələrdə / Kontekst / Şəffaflıq / Overtime |
| 9:00 | İz / Şəffaflıq / İşdən sonra |
| 10:05 | Qərb musiqisi |
| 11:00 | Xəbərlər |
| 11:05 | Qərb musiqisi |
| 12:00 | Xəbərlər |
| 12:05 | Qafqaz Qovşağı / Qaynar Xətt / Can Bakı / Iz / Şəffaflıq / 14-24 / Şəffaflıq / Azadlıq Bölgələrdə |
| 13:00 | Xəbərlər |
| 13:05 | Qərb musiqisi |
| 14:00 | Xəbərlər |
| 14:05 | Overtime / Kontekst / Qaynar Xətt / Can Bakı / Pen club / Overtime / Iz / Şəffaflıq |
| 15:00 | Xəbərlər |
| 15:05 | Qərb musiqisi / Qaynar Xətt / Can Bakı |
| 15:30 | Amerikanın Səsi / İz |
| 16:00 | Xəbərlər |
| 16:05 | Qərb musiqisi / İşdən sonra |
| 17:00 | Xəbərlər |
| 17:05 | İşdən sonra |
| 18:00 | Xəbərlər |
| 18:05 | İşdən sonra / Pen Klub |
| 19:00 | Qərb musiqisi |
| 20:00 | Xəbərlər |
| 20:05 | Kontekst / Azadlıq Bölgələrdə / Şəffaflıq / Qaynar Xətt / İslam və Demokratiya / 14-24 / İz |
| 20:30 | Amerikanın Səsi / Qafqaz Qovşağı / 14-24 |
| 21:00 | Qərb musiqisi |
| 22:00 | Xəbərlər |
| 22:05 | Kontekst / 14-24 / Şəffaflıq |
| 23:00 | Xəbərlər |
| 23:05 | Overtime / İşdən sonra / AzadlıqFM / Overtime |
| 00:00 - 8:00 | Amerikanın Səsi / Qərb musiqisi |

**Qeyd:** Kəsr xətti ilə verilmiş – eyni saatlara düşən verilişlər həftənin günlərindən asılı olaraq növbə ilə təkrar gedir...

# Simsiz teleqraf

## «Qəhrəmanlar» çayxanası



***Girişində «Qəhrəman kontrol» da var. Sumqayıt şəhəri. Yükləyən: Anonim. 27.01.2012.***

Sizdə də maraqlı video, foto və ya səs yazısı varsa bizə göndərin. Materialı kompyuterinizdən yükləmə səhifəsinə daxil olmaqla, yaxud MMS kimi mobil telefondan yollaya bilərsiniz. Ehtiyac varsa anonimliyi təmin edirik.

**Azərbaycandan:** (050) 213-56-30,

**Xaricdən:** (+420) 602 517 052

**Görüntüləri elektron poçtla da yollamaq olar:**

efir@azadliqradiosu.az

# AzadliqRadiosu.az®

necə dinləməli...

24 saat

**Mobil telefonda canlı:** İndi 3G, GPRS və ya Wi Fi-la radiomuzu canlı dinləmək olur... Ətraflı: **AzadliqRadiosu.az**-da

# AzadlıqRadiosu Facebook-da




**facebook.com/azadliqradiosu**

**Qaynar Xətt:** **436-77-41**

**SMS:** 050/ 744-10-17
**MMS:** 050/ 213-56-30

Bizimlə əlaqə:

**E-mail:** efir@AzadliqRadiosu.az


Azərbaycan Respublikası Ədliyyə Nazirliyində mətbu nəşrlərin reyestrinə daxil edilib, №3080

**"Fərqli düşüncə" jurnalının xüsusi buraxılışı**

Təsisçi və redaktor: Ş.A.Namazov

Bülleten redaksiyada səhifələnib, "Qanun" mətbəəsində çap olunub
Mətbəənin ünvanı: Bakı, Tbilisi prospekti, 2-ci Alatava, 9

Redaksiyanın ünvanı: Bakı, F.Şahbazov küçəsi, 18
email: fdjurnal@gmail.com
Tiraj: 10000 nüsxə
Pulsuz